

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 27 (22.938)

9 fevral 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Fevralın 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının VI qurultayı keçirilib.

Yeni Azərbaycan Partiyasının 700 mindən çox üzvünü təmsil edən nümayəndələrin iştirak etdikləri qurultayda partiyanın sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söyləyib.

Sonra çıxış edənlər dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən böyük quruculuq işlərindən, əldə olunan nailiyyətlərdən bəhs ediblər. Çıxışlarda 2018-ci il aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində partiyanın sədri İlham Əliyevin namizədliyinin irəli sürülməsi təklif olunub.

Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi, Baş nazirin müavini Əli Əhmədov 2018-ci il aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində partiyanın sədri İlham Əliyevin namizədliyinin irəli sürülməsi barədə qurultayın qərarını təqdim edib.

Qərar yekdilliklə qəbul olunub.

Yeni Azərbaycan Partiyasının sədri, dövlətimizin başçısı İlham Əliyev ona göstərilən dəstəyə görə minnətdarlığını bildirib.

Yeni Azərbaycan Partiyasının VI Qurultayı Dövlət Himninin səslənməsi ilə başa çatıb.

# Naxçıvanın muxtariyyət salnaməsi



***Bu gün Naxçıvan Muxtar Respublikasının yaradılmasının 94-cü ildönümü tamam olur.***

Naxçıvanın muxtariyyət tarixi çətin yollardan keçmişdir. Ötən əsrin əvvəllərində Azərbaycanda və onun Naxçıvan diyarında gərgin vəziyyət yaranmışdı. Burada baş verən hadisələr, erməni quldurlarının törətdikləri qırğınlar, "Naxçıvan məsələsi"ni Cənubi Qafqazın hüdudlarından kənara çıxararaq beynəlxalq problemə çevirmişdi. Göstərilən təzyiqlərə baxmayaraq, Naxçıvan əhalisi erməni daşnaklarına qarşı inadla mübarizə aparır, bölgəni qoruyub-saxlamaq üçün bütün imkanlardan istifadə edirdi. Müsəlman Milli Şurası Naxçıvanın təhlükəsizliyini təmin etmək üçün 1918-ci ilin noyabrında paytaxtı Naxçıvan şəhəri olan Araz-Türk Cümhuriyyətini yaratdı və hökumətin tərkibi formalaşdırıldı. Hökumətin tərkibi sədrdən və 6 üzvdən ibarət idi. Hökumətin başçısı vəzifəsinə Əmir bəy Nərimanbəyov seçilmişdi. Ərazisinə Naxçıvan və Şərur-Dərələyəz qəzaları, Ordubad mahalı, Eçmiədzin qəzasının bir hissəsi, İrəvan qəzasının Sərdarabad, Uluxanlı, Qəmərli, Vedibasar və Mehri bölgələri daxil olan Araz-Türk Respublikasının sahəsi 8,7 min kvadratkilometr, əhalisi bir milyon nəfərdən artıq idi.

Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqələr yaratmağa çalışan Araz-Türk Cümhuriyyəti onunla birləşmək üçün yollar axtarırdı. Bu cümhuriyyət erməni quldurlarının basqınlarına lazımi cavab verir, Naxçıvanın təhlükəsizliyini təmin edirdi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəyli 1919-cu ildə parlamentdəki çıxışında deyirdi ki, hökumət yaranmış şəraitdə Naxçıvana real yardım göstərə bilmədi, *"igid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll etdilər. Onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da, hökumətin işini asanlaşdırdılar".*

1920-ci il iyulun 28-də Naxçıvan sovetləşdi, ertəsi gün – iyulun 29-da Naxçıvan İnqilab Komitəsi təşkil edildi və bu komitə Naxçıvanı Sovet Sosialist Respublikası adlandırdı. 1920-ci il avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin sədri Mirzəli bəy Bektaşov Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanova məktub yazaraq Naxçıvanın Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olduğunu bəyan etdi.

Əgər 1918-1920-ci illərdə ermənilərin Naxçıvanı işğal etməklə bağlı cəhdləri daha çox hərbi və siyasi müstəvidə aparılmışdırsa, 1920-ci ilin aprelində bolşeviklərin Azərbaycanı işğal etməsindən sonra daşnak Ermənistanın ərazi iddiası mərkəzi hakimiyyətin regional siyasəti səviyyəsinə qaldırılmışdı. 1920-ci il noyabrın 29-da Azərbaycan torpaqlarında Ermənistan SSR-in yaradılmasından və ertəsi gün – noyabrın 30-da Nəriman Nərimanovun verdiyi bəyanatın qəzetlərdə saxtalaşdırılmış şəkildə nəşr edilməsindən sonra ermənilərin Naxçıvana iddiaları daha da genişləndi. Bu zaman V.Lenin, İ.Stalin və S.Orcenikidze qanunsuz olaraq Naxçıvanın Ermənistana verilməsi ideyasını müdafiə edirdilər. 1920-ci il dekabrın 2-də Gümrüdə Ermənistan hökuməti ilə Türkiyə arasında imzalanmış müqaviləyə əsasən Naxçıvan, Şərur və Şahtaxtıda səsvermə əsasında xüsusi idarəçilik yaradılmalı idi və Ermənistan onun işinə qarışmamağı öz öhdəsinə götürürdü. Ermənistan sovetləşdikdən sonra sovet rəhbərlərinin anti-Azərbaycan siyasəti nəticəsində Zəngəzur ərazisi Ermənistan SSR-ə verildi. Bundan sonra Naxçıvan Azərbaycanın əsas ərazisindən ayrı salındı və bununla da, Naxçıvanın muxtariyyəti məsələsi gündəliyə gəldi. Bu məsələlərdən bəhs edən ulu öndər Heydər Əliyev qeyd edirdi ki, ***"Əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi".***

1920-ci il dekabrın 5-də Naxçıvan əhalisinin etirazları başlandı. Naxçıvanda vəziyyət kəskinləşdiyinə görə respublika rəhbərliyi İnqilab Komitəsinin üzvü, Xalq Ədliyyə komissarı Behbud ağa Şahtaxtinskini Naxçıvana göndərdi. Naxçıvanın muxtariyyəti statusu qazanmasında və daşnak təcavüzünə qarşı əhalinin təşkilatlanmasında Behbud ağa Şahtaxtinskinin xidmətləri mühüm rol oynadı. Belə ki, o, Rusiya XKS-nin sədri V.İ.Leninə göndərdiyi məktub və teleqramlarda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, həmin mahalların milli tərkibi və coğrafiyasına dair geniş arayışlar və təkliflər vermişdir. Onun təklifləri ilə maraqlanan V.Lenin məsələnin RK(b)P MK Siyasi Bürosunda müzakirə edilməsi barədə göstəriş vermişdi.

Ermənilər öz iddialarından əl çəkmədikləri üçün Naxçıvan məsələsi ilə əlaqədar əhalinin fikrini öyrənmək məqsədilə Behbud ağa Şahtaxtinskinin təşəbbüsü ilə 1921-ci ilin əvvəllərində Naxçıvanda Rusiya, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilmiş rəy sorğusunda (referendumda) əhalinin 90 faizdən çoxu Naxçıvanın muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi.

Naxçıvan məsələsi Türkiyə və Rusiya arasında Moskvada keçirilən görüşlərdə də əsas müzakirə obyekti olmuşdur. Türk heyəti 1920-ci il 2 dekabr tarixli Gümrü müqaviləsinin qüvvədə olduğunu müdafiə edərkən, rus nümayəndələri bu anlaşmanı, dolayısı ilə Türkiyənin Naxçıvan üzərində himayə haqqı olduğunu qəbul etmirdilər. Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında 1921-ci il martın 16-da imzalanmış 16 maddə və 2 əlavədən ibarət Moskva müqaviləsində təsbit edildi. Bu müqavilə, eyni zamanda Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri də həll etdi.

Naxçıvanın muxtariyyət qazanmasında mühüm xidmətləri olan şəxslərdən biri də Nəriman Nərimanovdur. O, 1921-ci ilin mayında beşinci Azərbaycan Sovetlər qurultayındakı çıxışında Moskva müqaviləsinə hökumətin münasibətini bildirərək demişdir: "Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən Naxçıvan Azərbaycanın protektoratlığı altında müstəqil respublika elan olundu. Orada bizim nümayəndəmiz olacaqdır və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik".

Naxçıvanın ərazi məsələsinin müəyyənləşdirilməsi və onun muxtariyyət statusu əldə etməsində Qars müqaviləsinin rolu danılmazdır. 1921-ci il sentyabrın 26-da başlayan Qars konfransı oktyabrın 13-də müqavilə bağlanması ilə başa çatdı. Konfransda Moskva müqaviləsinin maddələri bir daha təsdiq edildi. Qars müqaviləsi əvvəlki müqavilənin şərtlərini daha da möhkəmləndirdi. 20 maddədən və 3 əlavədən ibarət olan bu müqavilənin beşinci maddəsi Naxçıvanın gələcək statusundan bəhs edirdi: *"Türkiyə hökuməti, sovet Ermənistanı və Azərbaycan hökumətləri Naxçıvan vilayətinin hazırkı müqavilənin üçüncü əlavəsində göstərilən sərhədlər daxilində Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar".* Müqavilənin müddətsiz imzalanması bölgənin gələcək taleyi üçün də böyük əhəmiyyət kəsb etmişdir.

Beləliklə, Naxçıvan əhalisinin müqaviməti və dönməz iradəsi, Türkiyənin ədalətli mövqeyi, Behbud ağa Şahtaxtinskinin siyasi və diplomatik səyləri nəticəsində Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı. Lakin Naxçıvana muxtariyyət statusu 1921-ci ildə verilsə də, bu, faktiki olaraq 3 il sonra reallaşdırıldı. Hətta 1923-cü ildə Naxçıvan muxtar respublika statusundan aşağı olan muxtar diyara çevrildi. Bir müddət sonra – 1923-cü ilin dekabrında Naxçıvan diyarı Naxçıvan SSR-ə çevrildi. 1924-cü il fevralın 9-da isə Azərbaycan MİK Naxçıvan MSSR-in yaradılması haqqında qərar verdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Naxçıvanın ən qiymətli sərvətlərindən biri də dövlətçilik ənənələrinin davamı olaraq formalaşan Naxçıvanın muxtariyyətidir. Naxçıvan Muxtar Respublikası milli mənsubiyyətə görə yox, 1918-1924-cü illərdə cərəyan edən daxili və xarici amillərin təsiri altında yaranmışdır. 1920-ci il dekabrın 2-də Rusiya və Ermənistan arasında bağlanmış hərbi-siyasi sazişə görə qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini həlli vacib olan məsələlər sırasına çəkmişdir".***

Naxçıvanın muxtar ərazi statusunun möhkəmləndirilməsində 1926-cı il aprelin 18-də 5-ci Ümumnaxçıvan Sovetlər qurultayında qəbul olunmuş Naxçıvan MSSR-in birinci Konstitusiyasının, 1937-ci il sentyabrın 17-də Naxçıvan MSSR-in 10-cu fövqəladə Sovetlər qurultayında qəbul olunmuş Naxçıvan MSSR-in ikinci Konstitusiyasının, 1978-ci il mayın 30-da Naxçıvan MSSR Ali Sovetinin 9-cu çağırış növbədənkənar 8-ci sessiyasının qəbul etdiyi üçüncü Konstitusiyasının mühüm rolu olmuşdur. Beləliklə, ermənilərin Naxçıvanın Azərbaycandan qoparılmasına yönəlmiş hər bir siyasi cəhdləri boşa çıxmış, Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olması və onun Azərbaycan dövlətçiliyindəki yeri öz ədalətli hüquqi qiymətini almışdır.

Ötən əsrin 80-ci illərinin axırlarında Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan ərazilərinə erməni iddiaları baş qaldırmış, mərkəzin ikiüzlü siyasəti bu hadisələri qızışdırmışdı. Lakin 1990-cı ilin iyul ayında görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublika ərazisini erməni işğalından və muxtariyyət statusunu ləğv olunmaq təhlükəsindən xilas etdi.

***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən ən böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq",*** – deyən müdrik dövlət xadimi Heydər Əliyev Türkiyə rəhbərləri ilə Qars müqaviləsini və onun şərtlərini müzakirə obyektinə çevirməklə beynəlxalq aləmin diqqətini bir daha bu vacib məsələyə cəlb etmişdi.

Ardı 2-ci səhifədə

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“1990-cı ilin iyul ayında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşayıb siyasi fəaliyyət göstərməsi muxtar respublika ərazisini işğaldan, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etdi. Bu illərdə xalqımızın böyük oğlunun muxtar respublika Ali Məclisində xüsusi bəyanatla çıxış etməsi, Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəmə gətirərək dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkar siyasətinə yönəltməsi Naxçıvanın muxtariyyət statusuna ikinci ömür vermişdir”.***

1993-cü ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə xalqın və müstəqil dövlətçiliyin xilası və möhkəmləndirilməsinə başlandı. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına və muxtariyyətin qorunmasına diqqət artırıldı. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtar dövlət statusu verildi.

Bir sözlə, müstəqillik illərində çətinliklərlə qarşılaşan, ermənilərin silahlı basqınları ilə üzləşən Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə qorunmuş və inkişafı təmin edilmişdir. 1995-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən Vasif Talıbov Heydər Əliyev siyasi kursunu uğurla davam etdirir. Ali Məclis Sədrinin rəhbərliyi ilə muxtar respublika yeni inkişaf mərhələsinə qədəm qoydu. Xarici ölkələrlə əlaqələr artırıldı. Keçid məntəqələri istifadəyə verildi, sərhədyanı ticarət canlandırıldı. İqtisadiyyat dirçəldildi. Əhalinin rifah halı yaxşılaşdırıldı. Yeni iş yerləri yaradıldı. Sərhədlərin etibarlı təhlükəsizliyi təmin edildi. Naxçıvan Muxtar Respublikasında irimiqyaslı tikinti-quruculuq, abadlıq və bərpa işləri aparıldı. Mədəniyyətin, təhsilin və elmin inkişafına diqqət artırıldı.

Bu gün muxtar respublikanın statusunun və sərhədlərinin beynəlxalq təşkilatlar səviyyəsində tanıdılması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. 2012-ci il oktyabrın 16-18-də Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Strasburqda keçirilən 23-cü plenar sessiyasında qəbul olunan sənədlərin birində Naxçıvan Muxtar Respublikası ilə bağlı çox mühüm və tarixi əhəmiyyətli məqam əks olunmuşdur. Bu sənəd Ali Məclis Sədrinin tövsiyəsi ilə hazırlanmış və nümayəndə heyəti tərəfindən Memoranduma daxil edilmişdir. Sənəddə qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasının konstitusion-hüquqi statusu Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Konstitusiyalarına, habelə hazırda qüvvədə olan iki beynəlxalq müqaviləyə əsaslanır. Bundan başqa, qeyd olunmuşdur ki, muxtar respublikanın statusu həm milli qanunvericilik, həm də beynəlxalq müqavilələrlə müəyyən olunmuşdur. Maddənin sənədə daxil edilməsi Azərbaycan, xüsusilə Naxçıvan Muxtar Respublikası üçün böyük siyasi əhəmiyyət kəsb edir. İlk dəfədir ki, Naxçıvan Muxtar Respublikasının statusunu, sərhədlərini müəyyən edən 1921-ci ildə qəbul olunan Moskva və Qars beynəlxalq müqavilələri beynəlxalq təşkilatın sənədlərində hazırda qüvvədə olan hüquqi sənəd kimi qiymətləndirilir. Ölkəmiz, o cümlədən muxtar respublikamız üçün mühüm olan beynəlxalq müqavilənin hüquqi qüvvəsinin Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilat tərəfindən tanınması, şübhəsiz ki, bu sahədə aparılan fəal diplomatik fəaliyyətin məntiqi nəticəsidir.

*Bu gün inkişaf dövrünü yaşayan Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına öz layiqli töhfəsini verir. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***“Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir”.***

**Yaşar RƏHİMOV**
*tarix üzrə fəlsəfə doktoru*

İcmal

## Sosial-iqtisadi inkişaf strategiyası yeni-yeni uğurların əldə edilməsinə zəmin yaradır

*Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən strateji inkişaf xəttinin muxtar respublikamızda uğurla davam etdirilməsi nəticəsində qədim diyarımızın sosial-iqtisadi mənzərəsi əsaslı şəkildə dəyişilib. Bütün sahələr üzrə innovativ yeniliklərin tətbiq olunması, reallaşdırılan məqsədyönlü islahatlar, bir sıra dövlət proqramları, mühüm infrastruktur layihələri davamlı yüksəlişi təmin edib. Muxtar respublikada inkişafın yeni konturlarını müəyyən edən perspektivli dövlət siyasətinin həyata keçirilməsi sahibkarlığın inkişafına, investisiya mühitinin daha da yaxşılaşdırılmasına səbəb olub. 2018-ci ilə əhəmiyyətli uğurlarla qədəm qoyan naxçıvanlılar əldə edilən bu nailiyyətlərin sevincini, eyni zamanda bu il Naxçıvan şəhərinin həm İslam Mədəniyyətinin Paytaxtı, həm də ölkəmizin Gənclər Paytaxtı olmasının qürurunu yaşayırlar.*

Yanvarın 1-də Naxçıvan Muxtar Respublikasının şəhər və rayon mərkəzlərində yeni ilin gəlişi münasibətilə bayram şənlikləri keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan şəhərinin Heydər Əliyev prospektində təşkil olunan bayram şənliyində iştirak edib, ictimai-iaşə xidmətinin təşkili ilə maraqlanıb, sakinlərin bayramını təbrik edib, uşaqlara hədiyyələr verib.

Göstərilən yüksək diqqət və qayğı nəticəsində son illər muxtar respublikamızda səhiyyə xidməti sahəsində köklü dəyişikliklər baş verib, səhiyyə müəssisələrinin maddi-texniki bazası gücləndirilib, tibbi kadrların səviyyəsi yüksəldilib. Bu gün muxtar respublikamızın səhiyyə müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri, mürəkkəb cərrahiyyə əməliyyatları aparılır ki, 20 il bundan əvvəl biz bunları ancaq arzu edə bilərdik. Hər il mövcud imkanlar və resurs perspektivləri nəzərə alınmaqla bu sahə sistemli şəkildə inkişaf etdirilir. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında əsaslı yenidənqurma işlərinin aparılması da bu çərçivədə həyata keçirilib. Ötən ayın 11-də istifadəyə verilən xəstəxanada yaradılan şərait, quraşdırılan avadanlıqlar müasir tibbin tələblərinə tam cavab verir.

Ali Məclisin Sədri Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında yaradılan şəraitlə tanış olub.

Bu gün muxtar respublikamızda aparılan geniş quruculuq işləri “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasını da əhatə edib, zastavalarda geniş quruculuq işləri aparılıb, müasir infrastruktur yaradılıb. Sərhəd xidməti təkmilləşdirilməklə yanaşı, sərhədçi ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqətdə saxlanılır. “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının ərazisindəki sərhədçi ailələri üçün nəzərdə tutulan xidməti yaşayış binasının əsaslı şəkildə yenidən qurulması da bu tədbirlərin davamıdır.

Yanvarın 14-də həmin yaşayış binası istifadəyə verilib. Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Həmin gün diviziyanın hərbi şəhərciyindəki digər yaşayış binasında 2 zabit ailəsi mənzillə təmin olunub.

Bu gün muxtar respublikamızın bütün yaşayış məntəqələri müasir görkəmə qovuşub. Naxçıvan şəhərində də geniş quruculuq işləri aparılır, yeni yaşayış binaları inşa olunur. Əhalinin rifahının yaxşılaşması insanların rahat və müasir mənzillərə olan tələbatını daha da artırır. Bu səbəbdən də Naxçıvan şəhərində müasir memarlıq üslubuna malik ictimai yaşayış binalarının tikintisinə xüsusi diqqət yetirilir.

Yanvarın 14-də Naxçıvan şəhərinin Heydər Əliyev prospektində milli və müasir memarlıq üslubunda inşa olunacaq 44 mənzilli 6 mərtəbəli yeni yaşayış binasının təməlatması olub.



Ali Məclisin Sədri yaşayış binasının layihəsinə və əraziyə baxıb, beton qarışığını bünövrəyə tökərək binanın təməlini qoyub, tikinti işlərinin müasir mühəndis-texniki tələblərə uyğun aparılması və keyfiyyət amilinə ciddi diqqət yetirilməsi barədə müvafiq tapşırıqlar verib.

Muxtar respublikamızın ən ucqar dağ kəndlərinin də müasirləşdirilməsi insanların yurda bağlılıqlarını artırıb. Təsadüfi deyil ki, indi Naxçıvanda daimi yaşamaq üçün şəhərlərə deyil, kəndlərə üz tutanların sayı hər keçən gün daha da artmaqdadır. Çünki həmin yaşayış məntəqələrində qaz, işıq, su, rabitə problemləri öz həllini tapıb. Bu gün muxtar respublikanın ən ucqar kəndində belə, mövcud olan internet bir sıra qabaqcıl şəhərlərdən də sürətlidir. Həmin yaşayış məntəqələrinə aparan əsas və kənddaxili yolların da rahat olması kənddə şəhər rahatlığını tam təmin edib.

Yanvarın 15-də Culfa rayonunun Dizə kəndi də muxtar respublikanın müasir yaşayış məntəqələri sırasına qoşulub. Həmin gün Dizə kənd avtomobil yolu əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilib, tam orta məktəbin yeni binasının, kənd və xidmət mərkəzlərinin açılışı olub.

Ali Məclisin Sədri açılış tədbirlərində iştirak edib, yaradılan şəraitlə maraqlanıb.

Dəyişməz reallıq budur ki, hansı ölkədə təhsilə qayğı göstərilirsə, həmin ölkədə hərtərəfli inkişaf təmin olunur. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***“Hər bir ölkənin, hər bir millətin aparıcı qüvvəsi onun təhsilidir”.*** Həqiqətən də, bütün sahələrdə inkişafı təmin etmək, yaxşı mütəxəssis hazırlamaq istəyiriksə, onda gənc nəslin təhsil səviyyəsi daim yüksəldilməlidir. Bu baxımdan Naxçıvanda təhsilin inkişafı sahəsində görülən işlər Naxçıvan Dövlət Universitetinin timsalında daha aydın görünür. Ali Məclis Sədrinin diqqət və qayğısı nəticəsində universitetdə böyük quruculuq işləri aparılıb, tədris müasir tələblərə uyğun qurulub, yeni fakültə və ixtisaslar açılıb. Ali təhsil ocağı bu gün elmin, tədrisin və mədəniyyətin inteqrasiyasını özündə birləşdirən dünya səviyyəli bir universitetə çevrilib. Onun beynəlxalq təhsil sisteminə inteqrasiyası istiqamətində işlər uğurla davam etdirilir. Bu çərçivədə yanvarın 17-də Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzi istifadəyə verilib.

Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak edib, universitetin Distant Təhsil Mərkəzi ilə tanış olub, mərkəzin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edib, onlara uğurlar arzulayıb.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi ixtisaslı həkimlərin hazırlanması istiqamətində səmərəli fəaliyyət göstərir. Bu il fakültənin yerləşdiyi bina əsaslı şəkildə yenidən qurulacaq.

Yanvarın 17-də Ali Məclisin Sədri binanın yenidənqurma layihəsinə baxıb, tikinti işlərinə başlanması ilə bağlı tapşırıqlar verib.

20 Yanvar tariximizə həm faciə, həm də qürur günü kimi həkk olunub. Ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da hər il 20 Yanvar şəhidlərinin xatirəsi əziz tutulur, şəhər və rayonlardakı şəhidlər xiyabanlarını minlərlə insan ziyarət edir.

Yanvarın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına gəlib, “Ana abidəsi”nin önünə əklil qoyub, şəhidlərin xatirəsinə ehtiramını bildirib.

Azərbaycan Respublikası Prezidentinin sədri olduğu “Caspian European Club”un 2017-ci il üçün ölkənin iqtisadi regionlarını əhatə edən 18 parametr üzrə hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq birinci yerə çıxıb. Muxtar respublikamız bu uğura ölkə başçısının göstərdiyi böyük diqqət və qayğı, ulu öndərimizin ideyalarına sədaqət və onun arzularının gerçəkləşməsi yolunda çəkilən zəhmət sayəsində nail olub. Bu, muxtar respublikamızda aparılan davamlı sosial-iqtisadi inkişafın məntiqi nəticəsidir.

Yanvarın 23-də Heydər Əliyev Muzeyində muxtar respublikanın 2017-ci ilin nəticələrinə görə investisiya reytinqində birinci yerə çıxması ilə bağlı tədbir keçirilib. Tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***“Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən davamlı islahatlar Azərbaycanın hər bir bölgəsini əhatə edib. 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının qəbulu və icra olunması ölkəmizdə tikinti-quruculuq işlərinin həcmini xeyli artırmış, sosial-iqtisadi islahatların əhatə dairəsi genişlənmiş, əhalinin rifahı halı yaxşılaşmışdır. Ötən dövrdə istifadəyə verilən məktəb binaları, olimpiya-idman kompleksləri, xəstəxanalar, salınan yollar, yaradılan yeni istehsal müəssisələri, açılan yüz minlərlə iş yerləri bir daha göstərir ki, Azərbaycanda inkişafın mərkəzində insan amili dayanır. Naxçıvan Muxtar Respublikasının inkişafı da ölkə başçısının müəyyən etdiyi “Güclü dövlət, yüksək rifah” strategiyasına əsaslanır”.***

Ali Məclisin Sədri qazanılan nailiyyətlərdə əməyi olan bütün muxtar respublika sakinlərinə, sahibkarlara və dövlət qulluqçularına, əmin-amanlığın təmin olunmasındakı xidmətlərinə görə hüquq-mühafizə orqanlarına, ordu, birləşmə və hissələrin şəxsi heyətlərinə təşəkkür edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2017-ci il mayın 3-də “Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında” Fərman imzalayıb. Fərmana uyğun olaraq Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi sahəsində bir sıra işlər görülüb. Yanvarın 25-də Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılıb.

Həmin gün Ali Məclisin Sədri icbari tibbi sığortanın tətbiqi sahəsində görülən işlərlə maraqlanıb.

Ali Məclisin Sədri muxtar respublikada müasir səhiyyə infrastrukturu yaradılmasının, yeni texnologiyalardan istifadənin və fiber-optik xətlərin çəkilməsinin icbari tibbi sığortanın tətbiqinə geniş imkanlar açdığını bildirib, tibbi sığorta üzrə maarifləndirmə işlərinə və seminarların keçirilməsinə diqqət yetirilməsi, həkimlərin təkmilləşdirmə kurslarında iştirakı, tibbi sığortaolunanların həkim göstərişi əsasında müayinələrinin təşkili, həkimlərin əməkhaqlarının artırılması, eləcə də Şərur rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılması barədə tapşırıqlar verib.

Sonra Sədərək rayon sakinləri ilə görüş olub.

Ali Məclisin Sədri tibbi sığortanın tətbiqi münasibətilə sakinləri təbrik edib.

*Bu gün muxtar respublikamızda həyata keçirilən bütün işlərin əsasında insan amilinə verilən yüksək qiymət dayanır. Naxçıvanın ötən dövr ərzində yazılan və yaradılan tarixi də məhz belə işıqlı ideyaya söykənib. 2018-ci ilin ilk ayı da bu tarixdə özünün layiqli yerini alıb. Muxtar respublikamızdakı sabitlik, əmin-amanlıq, birlik, həmrəylik və davamlı inkişaf nümunəyə çevrilib. Ötən illər ərzində aparılan genişmiqyaslı quruculuq işlərinin yanvar ayında da uğurla davam etdirilməsi isə bu il də muxtar respublikada quruculuq və tərəqqi mərhələsinin yeni müstəviyə qədəm qoyacağından xəbər verir.*

**Rauf KƏNGƏRLİ**

*Qloballaşma və müasirliyə doğru sürətli inkişaf hazırda cəmiyyət qarşısında mühüm vəzifələr qoyur. Belə ki, insanların artan tələbatlarını ödəyə bilmək, mövcud resurslardan səmərəli istifadə etməklə əhalinin yaşayış səviyyəsini yüksəltmək müasir dövr iqtisadiyyatının əsas prioritetlərindəndir. Bu mənada, Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın əsas amillərindən olan sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, onun rəqabətqabiliyyətliliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən bütün tədbirlər regionun investisiya cazibədarlığının artırılmasında mühüm əhəmiyyətə malikdir.*

# Naxçıvanda sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılıb



Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı məqsədilə qarşıya qoyulmuş nəticələrə nail olmaq, insan inkişaf indeksini yüksəltmək baxımından Naxçıvan Muxtar Respublikasında özəl bölmədə qazanılmış uğurlar diqqəti daha çox cəlb edən mövzulardan biridir.

Yaxın keçmişə qısa ekskurs etsək görərik ki, Naxçıvanda sahibkarlığın inkişafı heç də asan olmayıb. Düşmən blokadasının yaratdığı çətinliklər vaxtilə burada iqtisadi layihələrin həyata keçirilməsinə böyük problemlər yaradıb. Ölkəmizin müstəqilliyinin ilk illərində muxtar respublikanın iqtisadi inteqrasiya üçün zəruri olan nəqliyyat-kommunikasiya əlaqələrinin olmaması, enerji mənbələrinin qıtlığı, sovet dönəmindən miras qalmış istehsal, yol, anbar və ticarət infrastrukturunun yarıtmaz vəziyyəti burada azad bazar iqtisadiyyatına xas olan sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə imkan vermirdi. Lakin indi bütün bu çətinliklər artıq arxada qalıb, Naxçıvan gündən-günə abadlaşıb, inkişaf edib, İslam mədəniyyətinin və Azərbaycan gəncliyinin paytaxtına çevrilib. Bütün bu məqsədlərə çatmaq üçün hər addımda nümayiş etdirilən möhkəm iradə, səbir və qətiyyət öz bəhrəsini verib, muxtar respublika investisiya cazibədarlığı göstəricisində ölkəmizin regionları arasında lider mövqeyə yüksəlib.

Naxçıvanda mövcud olan təbii sərvətlərdən və istehsal-əmək ehtiyatlarından səmərəli istifadə ötən dövr ərzində sənaye və kənd təsərrüfatı sahələrində sərmayə qoyuluşlarının həcminin artmasına şərait yaradıb. Region əhalisinin tələbatlarının ödənilməsi, xüsusən də blokada şəraitində zəruri olan məhsulların istehsalı baxımından buradakı özəl sektor qarşısında ilk mərhələdə çox çətin həll ediləcək məsələlər idi. Lakin zaman keçdikcə bütün bunlar mərhələli şəkildə həll olunub. Bu mənada, muxtar respublikada sahibkarlıq potensialının formalaşdırılması həmişə dövlətin diqqət mərkəzində saxlanılıb.

Dünya təcrübəsinə əsasən biznesə gedən yolda əldə olunan uğurlar təkcə bazarın tələbatı ilə deyil, həm də dövlət və sosial maraqların ödənilməsi ilə mümkündür. Başqa sözlə, sahibkar təkcə öz mənfəəti üçün deyil, həm də biznesi ilə digər insanlar üçün faydalı ola bilirsə, bu zaman



o, işində uğur qazanacaqdır. Muxtar respublikamızda sahibkarlığın inkişaf yoluna nəzər saldıqda görürük ki, ötən dövr ərzində özəl sektorun üzərinə düşən vəzifələr, ümumən, bazar iqtisadiyyatı şəraitində mövcud olan dövlət-vətəndaş-sahibkar münasibətlərinin formalaşması ilə öz həllini tapıb. Bu bir daha sahibkarlığın cəmiyyətimizdəki artan nüfuzundan, onun daşıdığı məsuliyyətin ağırlığından xəbər verir. Əgər bir vaxtlar muxtar respublikamızda sahibkarlar yalnız kiçikhəcmli işlərlə kifayətlənirdilərsə, indi onlar ən müxtəlif istehsal və kənd təsərrüfatı sahələrində, sağlamlıq, turizm, ticarət, digər xidmət sektorlarında genişhəcmli layihələr həyata keçirirlər. Muxtar respublikamızda sahibkarlara göstərilən qayğının nəticəsidir ki, son 22 il ərzində burada yüksək texnologiyalar əsasında maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, mebel, yüngül və yeyinti sənayesi, kənd təsərrüfatı təyinatlı çoxsaylı istehsal və xidmət sahələri yaradılıb. Bu isə öz növbəsində, daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynamaqdadır.

Biznes üçün zəruri olan iqtisadi resurslar həmişə məhduddur. Belə bir şəraitdə sahibkarlığın inkişafını onlara göstərilən dövlət qayğısı olmadan təsəvvür etmək çox çətindir. Bu mənada, Naxçıvan Muxtar Respublikasında işgüzar fəaliyyətin dəstəklənməsi, sahibkarlığın təşviq olunması və yeni layihələr üçün kredit dəstəyinin verilməsi bu sahənin inkişafı baxımından mühüm əhəmiyyətli tədbirlər kimi öz bəhrəsini verməkdədir. Belə ki, hazırda muxtar respublikamızda 372 növdə məhsul istehsal olunur və 344 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Bu göstəricilərin arxasında isə on minlərlə yeni iş yerləri, əhali gəlirləri, demoqrafik artım dayanır ki, bu da, ümumən, muxtar respublika iqtisadiyyatının cazibədarlığını müəyyən edən amillərdəndir.

Sahibkarları iqtisadiyyatın lokomotivi də adlandırırlar. Bu mənada, cəmiyyətin inkişafı sahibkarlıq fəaliyyəti qarşısında da yeni tələblər qoyur. İnsanların yüksək həyat səviyyəsini təmin edə bilmək üçün Naxçıvanda fəaliyyət göstərən sahibkarlarımız da yaradılan şəraitdən maksimum dərəcədə istifadə etməyə, fəaliyyətlərini günün tələbləri səviyyəsində qurmağa çalışırlar. Hazırda onlar, idxaldan asılılığı daha da azaltmaqla yanaşı, ixracyönümlü məhsulların istehsalını çoxaltmaqla Naxçıvanın xarici ticarət balansında müsbət saldonun daha da artmasına öz töhfələrini verməyə çalışırlar. Burada da göstərilən dövlət qayğısı öz sözünü deyir. Belə ki, təkcə ötən il göstərilən maliyyə dəstəyi sayəsində 60 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb, 36 hüquqi və 2015 fiziki şəxs dövlət qeydiyyatına alınıb. Sahibkarlığa Kömək Fondu tərəfindən muxtar respublika sahibkarlarının fəaliyyətlərinə dəstək məqsədilə bu dövrdə 25 layihə üçün 1 milyon 978 min manat həcmində güzəştli kreditlər verilib. Ümumilikdə isə fond tərəfindən 2000-ci ildən etibarən 1244 layihənin maliyyələşdirilməsinə 136 milyon 182 min 282 manat həcmində güzəştli kreditlər verilib.

Sənaye muxtar respublika iqtisadiyyatının əsasını təşkil edir. İstehsal olunan sənaye məhsulunun 94,8 faizinin özəl sektorun payına düşməsi burada sahibkarlığın artan rolunu ifadə edir. Sahibkarlarımız dünya ölkələrinin qabaqcıl təcrübəsinin Naxçıvana gətirilməsi, muxtar respublikada müasir texnologiyaların tətbiqinə əsaslanan istehsal, emal və infrastruktur sahələrinin yaradılmasında da fəallıq nümayiş etdirirlər. Muxtar respublikanın iqtisadi təhlükəsizliyi möhkəmləndikcə müasir cəmiyyətin ən mühüm mədəni inkişaf göstəricilərindən olan sosial infrastrukturun yaradılması, elm, təhsil, səhiyyə, mədəniyyət, turizm, idman kimi sahələrdə canlanma da diqqəti cəlb edir.

Zaman sürətlə dəyişir və inkişaf özü ilə bərabər hər sahədə olduğu kimi, sahibkarlıq fəaliyyətində də yeni tələbləri müəyyənləşdirir. Qlobal rəqabətin kəskinləşdiyi bir dövrdə keyfiyyət, münasib qiymət, sosial məsuliyyət və ekoloji təhlükəsizlik kimi maraqlar getdikcə ön plana çıxan amillər kimi sahibkarlarımız qarşısında yeni vəzifələr qoyur. Bu mənada, hər bir iş adamı öz fəaliyyətini təkcə bazardakı mövqeyi üçün deyil, cəmiyyətdəki mövqeyi üzərində də qurmaqla davam etdirməyə çalışır. Bu mövqeyi isə onlarda ölkəmizin, muxtar respublikamızın daha da inkişafı naminə çalışmaq üçün göstərilən etimad yaradıb.

✍ **Əli CABBAROV**

# Arxiv işi yeni mərhələyə qədəm qoyub

*Naxçıvan Muxtar Respublikasındakı arxiv xidməti təşkilatları regionumuzun zəngin tarixini öyrənmək üçün qiymətli sənədlərin toplandığı və mühafizə olunduğu elmi-tədqiqat mərkəzləridir. Zaman keçdikcə xalqımızın əvəzsiz mənəvi sərvəti olan arxiv sənədlərinə daha çox müraciət olunur. Məhz bu xidmət vasitəsilə dövlət qurumlarının, eləcə də yerli və xarici tədqiqatçıların müxtəlif informasiyalara olan tələbatı ödənilir, vətəndaşların sosial-hüquqi xarakterli ərizə və sorğuları icra olunur. Bu baxımdan arxiv işinin günün tələbləri səviyyəsində qurulması qarşıda duran mühüm vəzifələrdəndir.*



Qeyd edək ki, muxtar respublikamızdakı dövlət arxivlərinin fəaliyyəti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən daim diqqət mərkəzində saxlanılır, bu elmi-tədqiqat mərkəzləri üçün lazımi iş şəraitinin yaradılması, onların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Göstərilən dövlət qayğısı muxtar respublikada arxiv işinin təkmilləşdirilməsinə, xidmətlərin səviyyəsinin yüksəldilməsinə imkan verir. Bunun nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsi 2017-ci ili nailiyyətlərlə başa vurub, fəaliyyətində uğurlu nəticələr qazanıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin tədbirlər planına uyğun olaraq ötən il Şahbuz, Şərur, Kəngərli, Babək və Ordubad Rayon Dövlət arxivlərində kompleks yoxlamalar və ictimai baxış keçirilərək, iş planlarının yerinə yetirilmə vəziyyəti, görülmüş işlərin keyfiyyəti və vətəndaşlar tərəfindən daxil olan sosial-hüquq xarakterli ərizə və sorğulara verilmiş arxiv arayışları yoxlanılaraq analiz edilib. Müəyyən edilmiş nöqsan və çatışmazlıqlar rayon dövlət arxivlərinin müdirlərinin diqqətinə çatdırılaraq, aradan qaldırılması istiqamətində tapşırıqlar verilib.

"Dövlət arxivlərinin maddi-texniki bazasının gücləndirilməsi və işçilərinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədi ilə göstərdiyi xidmətlərə görə Ödənişlər"in və həmin vəsaitin istifadə edilməsi, uçota alınması və hesabatın təqdim edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 15 may 2017-ci il tarixli Qərarının icrasını təmin etmək üçün Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi və rayon dövlət arxivlərində 1 iyun 2017-ci il tarixdən ödənişli xidmətlərin göstərilməsinə başlanılıb. Həmin tarixdən 29 dekabr 2017-ci il tarixədək Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinə və rayon dövlət arxivlərinə vətəndaşlar, idarə, müəssisə və təşkilatlar tərəfindən 1031 sosial-hüquq xarakterli sorğu daxil olub. Bundan əlavə, ötən il Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin illik iş planında kağız əsaslı sənədlərin bərpa edilməsi 5500 vərəqə nəzərdə tutulub, 9631 vərəqə bərpa olunaraq illik plan 175 faiz yerinə yetirilib. Həmçinin 224 fotoşəkil bərpa edilib. Sənədlərin tikilməsi və cildlənməsi sahəsi üzrə illik 4500 saxlama vahidinə qarşı 5803 saxlama vahidi tikilib. Eyni zamanda kağız əsaslı sənədlərin mövcudluğu və vəziyyətinin yoxlanılması maddəsi üzrə illik 120 min saxlama vahidinə qarşı 129 min 327 saxlama vahidinin mövcudluğu yoxlanılıb, 6000 fotosənədin və 2720 kinolentin mövcudluğu yoxlanılaraq müvafiq aktlar tərtib edilib. İdarə tərəfindən sənədlərin elektron daşıyıcılara köçürülməsi də diqqət mərkəzində saxlanılıb, nəzərdə tutulmuş 43 min vərəqəyə qarşı 48 min 9 vərəqə elektron daşıyıcılara köçürülüb. Bundan əlavə, komplektləşdirmə mənbəyi olan idarə, müəssisə və təşkilatlardan bəhs edilən dövrdə 7674, ümumilikdə isə həm dövlət qurumlarından, həm də rayon dövlət arxivlərindən 12 min 662 saxlama vahidi sənəd daimi mühafizə üçün Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinə qəbul edilib.

Məlum olduğu kimi, arxiv sənədlərindən tədqiqat işlərində istifadə olunması qurumun əsas fəaliyyət istiqamətlərindəndir. Bəhs edilən dövrdə Dövlət Arxiv Fondu sənədlərindən istifadə edilməklə "Ordubad Pedaqoji Texnikumu (1937-1958)" , "Naxçıvan Musiqi Kolleci (1974-2017)", "Naxçıvan Tibb Texnikumu", "Milli ədəbi-mədəni fikrimizin bayraqdarı – Eynəli bəy Sultanov (1866-1935)", "Zamandan yüksəkdə dayanan insan – Hüseyn Cavid-135", "Naxçıvan Kənd Təsərrüfatı Texnikumu (1936-1939)", "Cəlil Məmmədquluzadə adına Müəllimlər İnstitutu (1939-1954)" adlı tədqiqat işləri hazırlanaraq 314 nömrəli fonda verilib. Bundan əlavə, Dövlət Arxiv İdarəsində mühafizə edilən Naxçıvan və Ordubad şəhərinin kameral siyahılarından qədim məhəllə adları seçilərək rus dilindən tərcümə olunub, onlar haqqında məlumatlar sistemləşdirilib, "Naxçıvan şəhərinin qədim məhəllə adları" və "Ordubad şəhərinin qədim məhəllə adları" mövzularında tədqiqat işləri hazırlanaraq eyniadlı fonda verilib. Bundan əlavə, ötən il Rusiya Federasiyasından arxivə daxil olan 30 sorğuya cavab hazırlanıb.

Muxtar respublikanın tanınmış şəxsiyyətləri ilə bağlı şəxsi fondların yaradılması da diqqət mərkəzində saxlanılıb. Görülmüş bu işlərin nəticəsində ötən il Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində Sosialist Əməyi Qəhrəmanı Bahar Talıbovanın, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Elman Həbibin, şair-publisist Vaqif Məmmədovun, Böyük Vətən Müharibəsi veteranı Vəli Əliyevin şəxsi fondları yaradılıb, Azərbaycanın xalq artistləri Sofiya Hüseynovanın və Tofiq Mövləvinin şəxsi sənədləri Dövlət Arxivinə gətirilərək arxiv qaydalarına uyğun elmi-texniki cəhətdən tərtib olunmağa başlanılıb.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası zəngin tarixə, mədəniyyətə və mühüm dövlətçilik ənənələrinə malikdir. Eyni zamanda bu qədim Azərbaycan diyarı bir çox tanınmış şəxsiyyətləri ilə məşhurdur. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində qorunub saxlanılan sənədlər bu zəngin tarixi və mədəniyyəti daha dərindən öyrənməyə, müxtəlif sahələrdə fəaliyyət göstərmiş insanların həyat yoluna nəzər salmağa yeni imkanlar açır.

**Mehman MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin rəisi***

# Bütün istəyinə çatıb Naxçıvan



*Bu gün Yer kürəsi öz məhvərində,*
*Ulu bir diyarla öyünür hər an.*
*Dünyanın döyünən düz ürəyində,*
*Özünə yer tutub durur Naxçıvan!*

*Şərqin qapısıdı, Nuhun yurdudu,*
*Tarixlər yaşayır Gəmiqayada.*
*Məğrur Əlincədi, qalib ordudu,*
*Sədərək sınmadı düşmənə, yada.*

*Tanrıdan pay gələn sərvət-varı var,*
*Tükənməz qoynunda gövhər-zəri var.*
*Bəxş edib cahana müqəddəs torpaq*
*Ulu Heydər kimi böyük yadigar.*

*O böyük dühayla ən ağır anda,*
*Zamanla üz-üzə durdu Naxçıvan!*
*Heydər Əliyevin davamçısıyla,*
*Yeni günlərini qurdu Naxçıvan!*

*Qəlblər ovsunlayır torpağı, daşı,*
*Şəfəqə bələnir doğulanda dan.*
*Çox qədim olsa da tarixdə yaşı,*
*Gənclik libasını geyib Naxçıvan!*

*Mənim Naxçıvanım Odlar Yurdunun,*
*Qeyrət qalasıdı, ər balasıdı.*
*Öz məğrur keçmişi, mərd gəncliyiylə,*
*Tarixi yazaraq yaşadasıdı.*

*Memar Əcəminin gənc nəvələri,*
*Tikirlər, qururlar, gözəlləşibdi.*
*Müstəqil günündən ta üzü bəri,*
*O gənclik eşqiylə şölələnibdi.*

*Ay kimi nur saçar, ulduztək yanar,*
*Çiçək dənizidi qoynunda hər yan.*
*Onu hər kim görsə bəxtəvər sanar,*
*Bütün istəyinə çatıb Naxçıvan!*

**İbrahim YUSİFOĞLU**

*Xalq yaradıcılığı*

## Bədii tikmə sənəti bu gün də yaşadılır

***Qədim el sənəti nümunələri müasir dövrümüzdə də tətbiq edilir. Bunlar yüz illər boyu cilalana-cilalana dövrümüzə qədər gəlib çatıb. Onlardan biri də dekorativ-tətbiqi sənətdir. Dekorativ-tətbiqi sənətin müxtəlif növləri mövcuddur. Bu növlərdən biri də bədii tikmədir. Qədim dövrlərdən meydana gəlmiş bədii tikmə sənəti digər əl işləri kimi xalqın milli-mənəvi və estetik düşüncəsini özündə əks etdirir.***



Müxtəlif dövrlərdə Təbriz, Şamaxı, Gəncə, Naxçıvan, Şuşa və Quba şəhərlərində Azərbaycan tikmələri yüksək texniki və bədii xüsusiyyətlərlə hazırlanırdı. Bədii tikmə sənətində rəngli ipək saplardan istifadə olunurdu. Bədii tikmələr, əsasən, qızılgül, lalə, zanbaq, nar, heyva, sünbül, müxtəlif formalı yarpaqlar, qızıl və gümüş tellər, tovuzquşu, göyərçin və digər motivlər əsasında işlənilirdi.

Mənbələr göstərir ki, tikmələrimiz erkən orta əsrlərdən indiyədək bədii xüsusiyyətlərini itirməyib və əhali arasında ən geniş yayılmış xalq sənəti növlərindən olub. XIX əsrin 50-ci illərində Qafqaza səfər etmiş fransız yazıçısı Aleksandr Düma Azərbaycan bədii tikmələrinə heyran qalaraq demişdir: "Şəkidə mən iyirmi dörd manata bədii tikməli iki yəhər aldım. Fransada onu iki yüz franka da ala bilməzdim. Düzünü desəm, onu bizdə heç bir qiymətə tapmaq olmaz..."

Orta əsrlər dövründən etibarən Naxçıvanda da tikmə sənəti geniş yayılıb. Naxçıvan diyarında bədii tikmə sənəti ilə məşğul olan ustalar rəngarəng ipək və yun saplardan, həndəsi və nəbati naxışlar əsasında düzülmüş pilələrdən istifadə etməklə tikmə sənətinin müxtəlif növlərini yaradıblar.

Azərbaycan tikmələrinin bir neçə növləri var: təkəlduz, güləbətin, muncuqlu, qurama, saya, piləkli, oturtma və sair. XVI-XVII ərlərdə bədii tikmə üsullarına daxil olan güləbətin tikmə üsulu Azərbaycanın bir sıra bölgələri ilə yanaşı, Naxçıvanda da geniş yayılmışdı. Bu tikmə nümunəsi öz zəngin görünüşü və gözoxşayan tərtibatı ilə fərqlənir. Güləbətin tikmələr arxalıq, araqçın, saat, daraqqablarının, qadın üst və baş geyimləri və digər məişət əşyalarının üzərinə naxış formasında bəzək kimi vurulurdu. Bu tikmə üsulu üçün müxtəlif rəngli saplardan istifadə olunurdu və onlarla işləmək xüsusi sənətkarlıq tələb edirdi.

Güləbətin tikmə növünün bir neçə üsulu vardır. Doldurma tikmə sənəti muxtar respublikamızda daha çox yayılıb. Sadə və qabarıq doldurma üsulu milli geyimlərdə, xüsusən Naxçıvan qadınlarının üst geyimlərində və araqçınlarda daha çox təsadüf olunurdu. Qədimdə Naxçıvanda hər bir nişanlı qızın cehizliyinə daxil olan yastıqlar, daraqqabı, canamazlar, örtüklər və digər əşyalar güləbətin tikmə üsulu ilə bəzədilirdi.

Qədim və zəngin tarixə malik Naxçıvan bu gün Azərbaycanın milli-mənəvi dəyərlərin qoruyub yaşadılması, xalq yaradıcılığı nümunələrinin təbliğ olunması ilə fəqlənən bölgələrindəndir. Muxtar respublikamızın xalq yaradıcılığının müxtəlif sahələrinin inkişaf etdirildiyi bölgələrindən biri də Culfa rayonudur. Rayonda fəaliyyət göstərən "Gülüstan" mədəniyyət evinin bədii rəhbəri Aida İbrahimova ilə həmsöhbət olduq. O, dekorativ-tətbiqi sənətlə yanaşı, bədii tikmə sənəti ilə də uşaqlıqdan məşğul olur. Onun əl işləri təkcə tikmələrdən ibarət deyil, toxumalar və digər dekorativ-tətbiqi sənətin müxtəlif nümunələri ilə də zəngindir. Deyir ki, Naxçıvan ərazisində qədimdən yayılmış güləbətin tikmələrin bu gün bərpası və üzə çıxarılması məqsədilə Şəki bölgəsinə aid olan güləbətin və təkəlduz tikmələrini də öz işlərimizdə tətbiq edirik.

Aida xanım onu da vurğulayır ki, dekorativ-tətbiqi sənət növlərindən biri olan bədii tikmə sənətinin yaşadılması milli-mənəvi dəyərlərimizi qorumaq baxımından əhəmiyyət kəsb edir. O, "Əvvəlki dövrlərə nəzər salsaq, görərik ki, milli dəyərlərimizə aid olan əl işləri unudulmaqda idi", – deyir. Hətta toxunan əşyalar sandıqlarda və evin bir küncündə atılıb qalırdı. Dövlət qayğısı digər xalq yaradıcılığı nümunələri kimi bu sahənin də inkişafına şərait yaradıb.

Culfa Rayon "Gülüstan" mədəniyyət evində, o cümlədən Culfa Rayon Uşaq Yaradıcılıq Mərkəzində hazırlanan əl işləri hər il Naxçıvan Muxtar Respublikasında Novruz bayramı ilə bağlı keçirilən və digər tədbirlərdə, hətta muxtar respublikadan kənarda keçirilən tədbirlərdə sərgilənir. Bütün bunlar Naxçıvana gələn turistlərin diqqətini cəlb edir.

Onu da qeyd edək ki, Naxçıvan şəhərində yerləşən əl işlərinin sərgi-satış mağazalarının filiallarından biri də Culfa rayonunda yerləşir. Burada hazırlanan əl işləri sərgilənməklə yanaşı, onların satışı da təşkil olunur.

Culfa rayonunun mədəniyyət müəssisələri ilə yanaşı, Uşaq Yaradıcılıq Mərkəzində də Azərbaycanın qədim tikmələrini, toxumalarını öyrətmək üçün dərnəklər yaradılıb. Burada məqsəd milli-mənəvi dəyərlərimizi yaşatmaq, bu sənətə olan marağı gücləndirməkdir.

Aida xanım sonda onu da qeyd etdi ki, muxtar respublikanın rayonlarından dekorativ-tətbiqi sənət nümunələri ilə bağlı topladıqları etnoqrafik məlumatları kitab şəklində nəşr etdirmək fikrindədir.

Muxtar respublikanın rayonlarında dekorativ-tətbiqi sənət nümunələrinin, o cümlədən bədii tikmə sənətinin gənc nəslə öyrədilməsi milli-mənəvi dəyərlərimizi qorumaq, yaşatmaq baxımından əhəmiyyətli işlərdən biridir.

Naxçıvan Muxtar Republikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı muxtar respublikada belə dəyərlərin qorunmasına, təbliği və gələcək nəsillərə ötürülməsinə dövlət qayğısının parlaq ifadəsidir. Sərəncama əsasən müxtəlif tədbirlərin keçirilməsi davamlı xarakter alıb. Belə tədbirlər unudulmaqda olan folklor nümunələrimizin, milli adət-ənənələrimizin, qədim sənətlərimizin yenidən xalqımıza qaytarılmasında mühüm rol oynayır.

**Güntac ŞAHMƏMMƏDLİ**

***Naxçıvan Dövlət Tarix Muzeyində Naxçıvan Muxtar Respublikasının 94 illiyi münasibətilə "Muxtariyyətin yetirməsi olan Naxçıvan muzeyləri: tarix və müasirlik" mövzusunda dəyirmi masa keçirilib.***

## Tarix Muzeyində dəyirmi masa təşkil edilib



Naxçıvan Dövlət Tarix Muzeyinin təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə muzeyin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov açaraq mədəniyyət müəssisəsi olan muzeylərin qədim keçmişimizlə bu günümüz arasında körpü rolunu oynamasının əhəmiyyətindən danışıb.

Sonra Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Qumral Əsədovanın, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nəzakət Əsədovanın, Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyinin direktoru Aləmzər İbrahimovanın və başqalarının çıxışları olub.

Çıxışlarda Naxçıvanda muzey işinin tarixindən, muzeylərin inkişafına göstərilən dövlət qayğısından, bu sahədə ulu öndər Heydər Əliyevin xidmətlərindən və onun nəcib əməllərinin Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilməsindən bəhs edilib.

Sonda Naxçıvanın muxtariyyət tarixindən bəhs edən sərgiyə baxış olub.

**Xəbərlər şöbəsi**

## Sosial şəbəkələrlə bağlı seminar keçirilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki 8 nömrəli tam orta məktəbdə "Sosial şəbəkələrin müsbət və mənfi xüsusiyyətləri" mövzusunda seminar keçirilib.

Gənclər və İdman Nazirliyinin əməkdaşı Ayaz Cabbarov hazırlanmış slayd vasitəsilə mövzu ətrafında çıxış edərək bildirib ki, həyatımızın ayrılmaz hissəsinə çevrilən internetdən istifadə edənlərin sayı sürətlə artmaqdadır. İnsanlar internetdən informasiya əldə etmək, şəkillərə və videoçarxlara baxmaq, ünsiyyət qurmaq məqsədilə faydalanırlar. Bu gün muxtar respublikanın turizm məkanlarının, tarixi abidələrinin tanıdılmasında sosial şəbəkələrdən geniş istifadə olunur. Yeniyetmə və gənclərimizin iştirakı ilə turizm məkanlarına, tarixi abidələrə, muzeylərə gəzintilər təşkil olunur, həmin gəzintilər zamanı çəkilən fotoşəkillərə və videoçarxlara gənclər tərəfindən müxtəlif məlumat yazılaraq sosial şəbəkələrdə paylaşılır. Digər tərəfdən sosial şəbəkələrdən həddindən artıq istifadə etmək yeniyetmə və gəncləri təhsildən yayındıra, onların mənəvi-əxlaqi tərbiyəsinə mənfi təsir göstərə bilər.

Sonda seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

## Tennis turniri başa çatıb



Babək Rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Nehrəm kənd 1 nömrəli tam orta məktəbin idman zalında rayon ümumtəhsil məktəblərinin komandaları arasında keçirilən "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında stolüstü tennis turnirinə yekun vurulub.

Gərgin idman mübarizəsinin yekununda I yerə Nehrəm kənd 1 nömrəli, II yerə Babək qəsəbə 2 nömrəli, III yerə isə Nehrəm kənd 3 nömrəli tam orta məktəblərin komandaları layiq görülüb.

Sonda qalib komandalara və fərqlənən idmançılara diplomlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 126